# Pilləkən

(Esse)

**Oktay Səmədov,**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**



***Belə bir rəvayət var...***

***Düzənlikdə yol gedən səyyah uca bir dağın ətəyinə çatır. Dağı aşmaq məcburiyyəti ilə üzləşmiş səyyaha əli əsalı müdrik bir qoca yaxınlaşır:***

***- Tərəddüd edirsən? – deyə gülümsəyir.***

***- Elədir. Amma yolumu davam etməliyəm. Düşünürəm, bu dağa qalxa biləcəyəmmi?***

***- Yalnız bir yolun var – yuxarı. Mən sənə onu göstərərəm.***

***- Sən kimsən? – sevincək səyyah soruşur.***

***- Yaxınlıqda oluram. Buralara bələdəm, - qoca cavab verir. – Ardımca gəl.***

Bir qədər getdikdən sonra onlar dağın ətəyi boyunca yüksələn və tədricən pillələrə çevrilən cığıra çatırlar. Qoca deyir:

- Pillələrlə hündürlüyə qalxmaq daha asandır.

- Sözsüz. Bəs bu savab əməlin sahibi kimdir? – deyə yolçu pilləiəri göstərir.

- Bilmirəm, - deyə qoca cavab verir. – Tarixi bəlli deyil. Hələ



uşaqlıqda babam mənə bu pillələr haqqında danışmışdı. Hündürlüyündən də xəbərim yoxdur. Yuxarı qalxdıqca özün biləcəksən. Mən sənə yalnız yolu göstərirəm.

Qoca nurlu baxışlarını səyyahın gözünə dikib deyir:

- Bu pillələrlə qalxan hər bir kəsin qarşısında belə bir şərt qoyulur: addımını birinci pilləyə qoyub yoluna davam etməyə tələsmə. Nəfəsini dər və sənin həyatda rahat yaşamağına mane olan hər hansı bir əməlini yadına sal. Bu, sənə uşaqlıq və gənclik illərindən bu günədək əzab verən inciklik, haqsızlıq, günah, bəd əməl ola bilər. Günahkarı bağışla, səbəbkar olduğun haqsızlığa görə üzr istə. Etiraf etməkdən çəkinmə və qəlbini yüngülləşdir. Yalnız bu halda növbəti pilləyə qədəm qoya bilərsən. Anladınmı? Əks halda pillələrlə yüksələ bilməzsən. Hər pillə - bir ürək sıxıntısından qurtuluşdur. Dayan, düşün, yüngülləş və yoluna davam et. Sənə çətin ola bilər. Amma inan mənə - başqa yolun yoxdur. Qorxma, çəkinmə, cəsarətli və qətiyyətli ol. Səbirli olmağın da gərəklidir. Yalnız yuxarıda neçə pillə qalxdığını, neçə pillənin məhz sənə məxsus olduğunu biləcəksən... Vaxtdır, yubanma. Yolun açıq olsun!

Yolçu müdrik qocanın nəsihətinə əməl edərək pillələrlə addımladı. Və hər pillədə öz səhvlərini etiraf edib günahkarları bağışlamaqla ona bu yüksəlişi bəxş edən Taleyindən məmnun olduğunu dilə gətirdi. Pillələr arxada qaldıqca vicdan əzabından qurtulur, yüngülləşir, qəlbi rahatlıq tapır, ruhu təmizlənirdi...

Pillələrin sayı elə də çox deyildi. Amma onları bir-bir adlamaq lazım idi... Hamar və işıqlı yola çıxmaq, təbiətin gözəlliklərindən zövq almaq, səhərlər şehdən islanmış otların və çiçəklərin ətrini duymaq, gecələr göydə sayrışan ulduzları seyr etmək üçün... Fərqli, amma eyni istəklərlə yola çıxmış insanlarla ünsiyyətdən zövq alıb bəhrələnmək, sevincini və kədərini onlarla bölüşmək, sevib sevilmək üçün...

***Bir müddət sonra pilləleri arxada qoymuş səyyah Günəş şüaları altında bərq vuran rəngarəng çiçəklərə bürünmüş düzənliyə çıxır. Onun sağında və solunda inamla addımlayan yolçuları görür.***

***Hər biri öz ÖMÜR PİLLƏKƏNİNİ uğurla dəf edib sonsuzluğa qovuşmuş ruhu şad olanlardan idi..***

***

Bəşər övladının ən qədim kəşflərindən biri olan pilləkənin yeganə vəzifəsi yuxarı və aşağı istiqamətdə hərəkəti təmin etməkdir. Sözsüz ki, maili səth üzrə hərəkət etmək daha rahatdır: ayağı çox yuxarı qaldırmağa gərək yoxdur. Amma bu gün də, yeni texnologiyalar və yüksək sürətlər əsrində, ünsiyyət qurmaq, informasiya əldə etmək və ya məlumat ötürmək üçün zaman və məkanda yerdəyişməyə ehtiyac olmadığı dövrdə yol qət etmək üçün ən etibarlı qurğu – pilləkəndir.

Fərq etməz: bu qurğunun real pillələri taxtadan və ya daşdan, dəmirdən və ya ipdən, virtual pillələri arzu və istəklərdən, məqsəd və nəticələrdən ibarət ola bilər.

O, özündə yalnız iki istiqaməti ehtiva edir – yuxarı və aşağı. Heç şübhəsiz, hər ikisi insan həyatında ən başlıca və etibarlı istiqamətlərdir. Yuxarıya doğru hərəkət daim gələcəklə, yeni üfüqlərlə, tərəqqi ilə, aşağıya doğru isə - keçmişlə, tənəzzüllə bağlıdır...

***Pillələr sabit və sürətli hərəkəti nəzərdə tutmur, hədəfə doğru yolda səbirli və təmkinli olmağı tələb edir. 'Yuxarı, yoxsa aşağı – hansı istiqamət daha önəmlidir?" sualına isə cavab bəllidir. Amma unutmayaq ki, aşağısız yuxarı, enişsiz yoxuş olmur. Hər ikisi – mühüm yönəmlərdir. Biri – başlanğıc, digəri – sondur. Birini dərk etmədən digərinə nail olmaq – mümkünsüzdür. Hər ikisini birləşdirən pillələrlə addımlayarkən özümüzü dərk etmiş oluruq. Fərdi xüsusiyyətlərimizdən asılı olaraq birimiz - asanlıqla, digərimiz – çətinliklə...***

Hər birimizin özünə məxsus pilləkəni var. Amma hamılıqla vahid pilləkənlə – bəşəriyyətin təkamül pillələrini adlayaraq irəliləyirik. Bəziləri düşünür ki, dünyaya göz açdığımız gündən zirvədəyik və ömür yolumuz bizi ölümə, yəni aşağıya doğru aparır. Digərləri insanın dünyaya uca zirvələri fəth edərək son nəticədə əbədiyyata qovuşmaq naminə var qüvvəsi ilə daim yüksəlmək üçün gəldiyini bəyan edirlər.

Əslində, hər iki tərəf haqlıdır: hər bir bəşər övladının həyata öz baxışı var. Yüksəlişə doğru yolda vaxtımızı və gücümüzü sərf edirikə, nəinki bu itkilər özünü doğrultmalı, həm də əldə edilən nəticələr möhkəmlənməli, sabitləşməlidir. Hədəfə yol açan maili səthdən fərqli olaraq, pilləkən dayanmaq, nəfəsi dərmək, müəyyən mərhələdə möhkəmlənmək imkanı verən pillələrin düzümüdür. Müxtəlif səviyyələri və altsəviyyələri əks etdirən pillələrlə biz hər zaman və hər yerdə - uşaqlıq dövründə, təhsildə, əmək fəaliyyətində və məişətdə üzləşirik.

Deyilənə görə, istənilən münasibətlər zamanla sınağa çəkilir. Həm də yuxarı və aşağıya yönəlmiş pillələrlə... Dost dar gündə (aşağı pillə) və şad gündə (yuxarı pillə) tanınır... Sevənlər bir-birinə qovuşanda onlara qoşa qarımağı (aşağı pillə) və oğullu-uşaqlı olmağı (yuxarı pillə) diləyirik...

Sevinc və səadət olan yerdə istiqamət yuxarı, qəm-qüssə olan yerdə - aşağı yönəlir.

Ölüm isə - sondur... Çox zaman iki nəfərin əl-ələ tutub birgə addımladığı pilləkənin sonu. Bu halda hər hansı bir istiqamətə üstünlük vermək düzgün deyil – hər iki istiqamət önəmlidir: münasibətlərin yüksəkliyi də, dərinliyi də...

Bəziləri, hətta yetkin və təcrübəli olanlar belə, zirvəyə yüksəlib özlərini fövqəl-qüvvə hesab edir, ətrafdakıları saya almır, öz müqəddəsliklərinə inanırlar. Düşünmürlər ki, yüksək pillədə xırda qum dənəsi kimi küləklə sovrula bilərlər. Pilləkənin əsas qanunlarından biri məhz budur: yuxarı qalxmaq istəmirsənsə, gücün və ya məqsədə çatmaq niyyətin tükənibsə, hündürlüyü dərk etmək, dərinliyi duymaq üçün aşağı enməlisən.

Pilləkən qanunları sadə olduğu qədər mürəkkəbdir. Yüksəldikcə, çətinlikləri dəf edərək təkamül yolunda daim irəliləyirsən. Ani sıçrayış mənəvi inkişaf qanununu pozur, məkan və zaman çərçivəsini dağıdır, zirvəyə aparan yolu gözəgörünməz edir. Pillələrlə aramla, tələsmədən, hər dəfə kiçik fasilələrlə qalxmaq gərəklidir. Səbirsizlik təhlükə doğurur – büdrəsən növbəti pilləyə ayağın yox, alnın dəyər.

***Pilləkən qanunlarına alışmalıyıq. Dərk etməliyik ki, enişsiz yoxuş, başlanğıcsız son olmur. Zirvəyə qalxmaq çətindir, amma enmək də asan deyil. Hər iki halda şərəfini və ləyaqətini qoruyub saxlamağı, hədəfi düzgün seçməyi, hər pillədən faydalanmağı, arxadan gələnə isə əl uzatmağı bacarmalıyıq.***

***Bağışlamağı və etiraf etməyi bacarmalıyıq.***

***Ruhumuzun şad olması naminə...***

**Bəşər övladının ən qədim kəşflərindən biri olan pilləkənin yeganə vəzifəsi yuxarı və aşağı istiqamətdə hərəkəti təmin etməkdir. Sözsüz ki, maili səth üzrə hərəkət etmək daha rahatdır: ayağı çox yuxarı qaldırmağa gərək yoxdur. Amma bu gün də, yeni texnologiyalar və yüksək sürətlər əsrində, ünsiyyət qurmaq, informasiya əldə etmək və ya məlumat ötürmək üçün zaman və məkanda yerdəyişməyə ehtiyac olmadığı dövrdə yol qət etmək üçün ən etibarlı qurğu – pilləkəndir**

